**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# SABİR AZƏRİ VƏ VİDADİ BABANLI NƏSRİNDƏ SOSİAL MÜHİTİN İNİKASI PROBLEMİ

İxtisas: 5716.01 - Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Şəhrizad Bəhram qızı Nuhova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2021**

Dissertasiya işi Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Slavyan Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Bədirxan Balaca oğlu Əhmədov**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor.
**İslam Eynəli oğlu Qəribov**

filologiya elmləri doktoru, dosent
**Gülxani Vaqif qızı Şükürova (Pənah)**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Məti Osman oğlu Bayramlı**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurası

Dissertasiya şurasının sədri: akademik, filologiya elmləri doktoru, professor
____________ **İsa Əkbər oğlu Həbibbəyli**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
____________ **İsmixan Məhəmməd oğlu Osmanlı**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, dosent
____________ **Əlizadə Bayram oğlu Əsgərli**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XX yüzilin 60-cı illərində Azərbaycan bədii nəsrinin keyfiyyətcə dəyişməsində ədəbiyyata gələn yeni nəsillərin yaradıcılığı mühüm yer tutur. İsa Hüseynov, Anar, İsi Məlikzadə, Elçin, Sabir Əhmədov, Yusif Səmədoğlu, Maqsud İbrahimbəyov, Fərman Kərimzadə, Sabir Azəri, Vidadi Babanlı və başqalarının yaradıcılığında mənəvi-əxlaqi axtarışların bədii ifadəsi yeni mövzu və problematikanın işlənilməsinə imkan verdi. Ədəbi düşüncənin, mövzuların, obrazların, süjet xətlərinin, təhkiyənin yeniləşməsində sonralar ədəbi tənqidin Altmışıncılar adlandırdığı, əsasən gənclərin rolu aparıcı yer tutdu. İstər təhkiyə, istər təsvir özünəməxsusluğu, istərsə də hadisələrə yanaşmada ideoloji meyillərdən təmizlənməsi yeni nəsrin uzunömürlülüyünü şərtləndirən amillərdən idi. Bədii nəsrə yeni gələn qüvvələrin dil və üslub özünəməxsusluğu da altmışıncılar nəsrinin əsas cəhətlərdəndir. Bütün bunlar altmışıncılar nəsrini Ümumittifaq, daha sonra isə dünya ədəbi prosesinə bir qədər də yaxınlaşdırdı.

Artıq qırx ilə yaxındır ki, ədəbi tənqid və ədəbiyyatşünaslığımız bu yazıçıların yaradıcılığını müxtəlif aspektlərdən araşdırmış, onların ədəbiyyata gətirdiyi yeni obraz və xarakterləri təhlil süzgəcindən keçirmişdir. İ.Hüseynov, Anar, S.Əhmədov, Elçin, İ.Məlikzadə və b. yazıçıların yaradıcılığı bu və ya digər problemlər baxımından tədqiqata cəlb edilmiş, məqalə və monoqrafiyalar yazılmışdır. Lakin altmışıncılar nəslinin elə nümayəndələri olmuşdur ki, onların yaradıcılığı müəyyən səbəblərdən tədqiqatdan kənarda qalmışdır. S.Azəri və V.Babanlının yaradıcılığı belələrindəndir. Belə ki, hər iki yazıçı orijinal təsvir üslubuna malik olmaqla yanaşı, həm də dövrün, sosial mühitin tərcümanı olaraq 60-90-cı illər ədəbi prosesinin aparıcı nümayəndələrindən biri kimi, yeni nəsrin formalaşmasında mühüm xidmətləri olmuşdur. Buna görə də S.Azəri və V.Babanlı yaradıcılığını bu kontekstdə tədqiqata cəlb etmək və çağdaş ədəbiyyatşünaslıq mövqeyindən dəyərləndirmək həm də altmışıncılar nəslinin ədəbi yaradıcılığının estetikasını tamamlamağa xidmət edir. Ədəbi proses o zaman bütün

tamlığı ilə üzə çıxır ki, onun nümayəndələrinin yaradıcılığına obyektiv qiymət verilsin, ədəbi mühit və problemlər kontekstində təfərrüatları ilə öyrənilsin. S.Azəri və V.Babanlı yaradıcılığını sosial mühitin inikası baxımından araşdırmaq altmışıncılar nəsrini bütün yönlərilə üzə çıxarmağa, yeni nəticələrə gəlməyə imkan verir.

Dissertasiya işinin hər iki yazıçının yaradıcılığında sosial mühit probleminə həsr edilməsi heç də təsadüfi deyildir. Çünki müxtəlif dövrlərdə Sovet hakimiyyətinin diqtəsi ilə müxtəlif ədəbi cərəyanların zorakı şəkildə həyata keçirilməsinə məcbur edilən ədəbiyyatımız bu günlərdə həmin ağır şərtlər altından sanki silkinib çıxaraq öz düzgün yolunu tapmağa çalışır. Bu mənada hekayə, povest və romanları geniş oxucu kütləsi tərəfindən daim böyük maraqla qarşılanan S.Azəri və V.Babanlı nəsri problemin qoyuluşu və bədii həlli baxımından böyük maraq kəsb etdiyi kimi, həm də bir-birilə səsləşir.

Mövzunun aktuallığı onunla şərtlənir ki, hər iki yazıçı altmışıncılar nəsrinin görkəmli nümayəndəsi olmaqla yanaşı, həm də 60-90-cı illər nəsrinin inşasında da yaxından iştirak etmiş, geniş oxucu kütləsinin rəğbətini qazanan əsərlər yazmışlar. Lakin hər iki yazıçının yaradıcılığı sosial mühit kontekstində öyrənilməmiş və haqlarında fundamental tədqiqat əsərləri yazılmamışdır.

Mövzunun aktuallığını şərtləndirən amillərdən biri də problemin öyrənilməsi və araşdırılması səviyyəsidir. Belə ki, ədəbi tənqid və ədəbiyyatşünaslıq indiyədək ayrı-ayrı tədqiqatlarda, icmal məqalələrdə altmışıncılar nəsrinə və 60-cılar nəslinə geniş yer vermişdir[1]. Tənqidçilərdən A.Hüseynov, A.Əfəndiyev, Anar, M.İmanov, N.Cəfərov, Ş.Alışanov, N.Əliyeva, C.Məmmədli, T.Əlişanoğlu və

---

[1] Hüseynov A. Nəsr və zaman. Bakı: "Yazıçı", 1980, 185 s., Hüseynov A. Sənət meyarı. Bakı: "Yazıçı", 1986, 314 s., Hüseynov A. Həyat və sənət həqiqəti. Bakı: "T" nəşriyyat-poliqrafiya mərkəzi, 2000, 203 s, Əfəndiyev A. Müdriklik səlahiyyəti. Bakı: "Gənclik", 1976, 192 s.; Anar. Nəsrin fəzası. "Azərbaycan", 1984, №11, s.79-93; Məmmədov A. Altmışıncılar səksəninci illərdə. "Ədəbiyyat və incəsənət", 1987, 4 sentyabr,.; İmanov M. Müasir Azəbaycan nəsrində psixologizm. Bakı: Elm, 1991, 116 s.; Alışanov Ş. Ədəbi-bədii düşüncənin sərhədləri. Bakı: "Elm", 2011;", 1988, 1 aprel s.8; Əliyeva N. 60-80-cı illər nəsrində qəhrəman və üslub axtarışları. Bakı: "Elm", 1997, 160 s. ; Əlişanoğlu T. Azərbaycan "yeni nəsr"i. Bakı: "Elm", 1999, 128 s.; və s.

b. 60-cılar nəsri ilə bağlı yazdıqları məqalə, icmal və tədqiqatlarda bu və ya digər şəkildə problemə toxunmuşlar. Lakin bütün bu araşdırmalarda S.Azəri və V.Babanlı yaradıcılığına çox az yer verilmiş, onların əsərlərinə, əsərlərində qaldırdıqları problemlərə yalnız ümumi kontekstdən qiymət verilmişdir. A.Hüseynovun "Sənət meyarı" kitabında və 70-ci illərdə ilin nəsr mənzərəsinə aid araşdırmalarında, Elçinin məqalələrində bu yazıçların yaradıcılığı ilə bağlı altmışıncılar nəsri kontekstində bəzi təhlillər aparılmışdır. Ancaq hər iki yazıçının yaradıcılığı haqqında aparılan araşdırmalar daha çox ədəbi tənqidin üzərinə düşür. Hər iki yazıçının əsərlərinə yazılan resenziya və məqalələrdə onların bədii nəsr xüsusiyyətlərinə qiymət verməyə çalışılmışdır[2]. Tənqidçilərdən B.Nəbiyev, Q.Xəlilov, İ.Əbilov, V.Vəliyev, M.Qocayev, V.Yusifli, B.Əhmədov, R.Kamal və b. məqalələrində V.Babanlı və S.Azəri yaradıcılığının ayrı-ayrı əsərləri, problemləri təhlil edilir. V.Babanlının "Vicdan susanda", S.Azərinin "Dalanda" romanları ədəbi mühitdə hadisəyə çevrildiyindən hər iki əsər haqqında çoxlu məqalələr yazılmışdır. Azərbaycan nəsrində sosial mühitin inikası problemi isə (Sabir Azəri və Vidadi Babanlı yaradıcılığı əsasında)

---

[2] Nəbiyev B. Vüqarın ibrətamiz taleyi. V.Babanlı. Vicdan susanda. Bakı: "Yazıçı", 1982, s. 512-518, Nəbiyev B. Dalanda kəsişən yollar. "Kommunist", 1986, 1 aprel, Nəbiyev B. Roman və müasir qəhrəman. Bakı: "Yazıçı", 1987, 295 s.; Cəfərzadə Ə.Vicdanın hökmü ilə. "Kommunist", 1977, 11 may; Xəlilov Q. Həyatı yarımçıq öyrənəndə. "Həyat və idrak". Bakı: "Yazıçı", 1980, s. 271-283, Xəlilov Q. Çoban həyatından lövhələr. "Ədəbiyyat və incəsənət", 1972, 29 yanvar; Xəlilov Q. Torpağa sədaqətlə. "Ədəbiyyat və incəsənət", 1979, 24 fevral; Cəfərov N. Vicdan susmayanda, yaxud V. Babanlının "Ömürlük cəza"sı. "Ədəbiyyat qəzeti", 1997, 10 iyul; Cəfərov N. V.Babanlı, yaxud susmayan vicdanın səsi: (V.Babanlı 75 yaş) Azərbaycan-2002. № 5 s.82-83; Fikrət Q. Bədii sözün qüdrəti. S.Azəri. Dalanda. Bakı: "Yazıçı", 1984, 254 s. s. 3-8; Əbilov İ. Ocağın cazibəsi. "Ədəbiyyat və incəsənət", 1983, 16 sentyabr; Vəliyev V. Müqəddəs ocağın istisi. "Ədəbiyyat və incəsənət", 1984, 22 iyun; Qocayev M. Zərurəti dərk etməyincə. "Azərbaycan", 1984, N12, s.; Yusifli V. Müasirlik duyğusu. "Yeni Azərbaycan", 1997, 18 yanvar; Yusifli V.Vicdan susmasın. "Azərbaycan gəncləri", 1979, 7 aprel; Yusifli V. Nəsr: konfiliktlər, xarakterlər. Bakı: "Yazıçı" 1986, 168, s.; Bəşirov S. 60-cılar nəsrinin etik problemləri. Bakı: "Elm", 2006, 391 s.; Əhmədov B. Sözə bağlı ömür. "525-ci qəzet", 2013, 20 mart; Rüstəm K. Vidadi Babanlı: müdrik yaşın sevgi nağılı. V.Babanlı. Qəribə eşq (roman). Bakı: "Çinar-Çap", 2007, s. 3-4; və s.

indiyə qədər dərindən tədqiq və təhlil olunmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Sabir Azəri və Vidadi Babanlının əsərləri tədqiqat işinin əsas predmetini təşkil edir. Hər iki yazıçının eyni ədəbi mühitdə yaşaması və bir-birinə yaxın sosial mühiti təsvir etməsi tədqiqat işinin konseptuallığını artırır. Onların əsərlərinin müqayisəli şəkildə təhlili əsasında sosial mühitin xarakteri və özünəməxsusluğu aydınlaşdırılır. Altmışıncılar nəslinin görkəmli nümayəndələrinin nəsrində sosial mühit probleminin araşdırılması tədqiqat işinin obuektinin aktuallığından irəli gəlir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Azərbaycan nəsrində sosial mühitin inikası problemlərini müqayisəli şəkildə təhlil etmək tədqiqat işinin əsas məqsədini təşkil edir. Tədqiqat işinin qarşısında aşağıdakı vəzifələr qoyulmuşdur:

- S.Azəri və V.Babanlı nəsri əsasında sosial mühitin xarakterini və özünəməxsusluğunu araşdırmaq;
- Sosial-psixoloji hadisələrin özünəməxsusluğunu müəyyənləşdirmək;
- S.Azəri və V.Babanlı nəsrində sosial mühit və qəhrəman problemini tədqiq etmək;
- Sosial mühit və ictimai proseslərə fərdi baxış konsepsiyasını müəyyənləşdirmək;
- Azərbaycan sosial gerçəkliyində qəhrəman problemini araşdırmaq və s.

**Tədqiqat metodları.** Dissertasiyanın metodoloji əsasını çağdaş ədəbiyyatşünaslığın nəsr problemlərinə yanaşmada yeni elmi-nəzəri müddəalar təşkil edir. Bu yanaşmada sosrealizm prinsiplərindən fərqli olaraq ədəbi-bədii materialın qiymətləndirilməsində bəşəri dəyərlər, ümumi elmi nəzəri prinsiplər əsas yer tutur. Tədqiqatda tarixilik prinsipinə əməl edilmişdir. Tədqiqat işi iki yazıçının yaradıcılığına həsr olunduğundan tipoloji-müqayisələrə də yer verilmiş, əsərlərin təhlilində müqayisəli təhlil üsullarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə aşağıdakı müddəaların çıxarılması məqsədəuyğundur:

- S.Azəri və V.Babanlının altmışıncılar nəslinə mənsub olması və eyni estetik kredonu inkişaf etdirməsi;

- S.Azəri və B.Babanlı nəsrində sosial problematikanın həlli məsələlərinin ifadəsi;

- S.Azəri və V.Babanlı nəsrində kənd mühiti və mənəvi-əxlaqi problemlərin dərki məsələləri;

- S.Azəri və V.Babanlı nəsrində şəhər mühitini sosial-siyasi həyatın ziddiyyətləri konteksti;

- S.Azərinin "Dalanda" romanınında cəmiyyətin dalana dirənməsi ideyasının inikası məsələləri;

- V.Babanlının "Vicdan susanda" romanında cəmiyyətdə mənəvi-əxlaqi problemlərə yeni baxışın dərki;

- Hər iki yazıçının bədii-sənədli nəsrində dövrün ictimai-siyasi hadisələri və ədəbi prosesinin analizi;

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan nəsrini S.Azəri və V.Babanlının yaradıcılığı əsasında sosial mühitin inikası problemləri baxımından təhlil etmək və araşdırmaq tədqiqat işinin əsas elmi yeniliklərindəndir. İlk dəfə olaraq, hər iki yazıçının yaradıcılığı sosial mühit konteksti baxımından araşdırılır. Tədqiqatda hər iki yazıçının ədəbi prosesdəki yeri və mövqeyi müəyyənləşdirilir. Hər iki yazıçının ədəbi-estetik mövqeyi baxımından altmışıncılar nəslinə aid edilməsi də bu yeniliklər sırasındadır. Altmışıncıların bədii-estetik düşüncəsinə gətirdikləri yeniliklər, obraz və xarakterlər, təsvir və təhkiyə kimi məsələlər təhlil edilir, müəyyən nəticələr çıxarılır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin əsas müddəaları və nəticələrindən aşağıdakı hallarda istifadə oluna bilər:

Dissertasiya Azərbaycan ədəbiyyatı tarixinin mühüm bir mərhələsinin təşəkkülü, təkamülü və şəxsiyyətlərinin araşdırılmasında əhəmiyyətli ola bilər. Bundan başqa, tədqiqatın nəticələrindən humanitar elmlərlə məşğul olan tədqiqatçılar, alimlər, ali məktəb müəllimləri, filologiya fakultəsinin tələbələri və ümumiyyətlə bütün oxucu kütləsi faydalana bilər.

**Dissertasiyanın aprobasiyası və tətbiqi.** Tədqiqat işi Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Slavyan Universitetinin "Azərbaycan ədəbiyyatı" kafedrasında əsas elmi tədqiqat istiqamətlərinə uyğun olaraq yerinə yetirilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Slavyan Universitetinin "Azərbaycan ədəbiyyatı" kafedrasında əsas elmi tədqiqat istiqamətlərinə uyğun şəkildə yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu və ümumi həcmi.** Dissertasiya Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır.

Dissertasiya işi giriş (10 371 şərti işarə), 3 fəsil (birinci fəsil iki paraqraf, 76 172 şərti işarə; ikinci fəsil iki paraqraf – 83 221 şərti işarə, üçüncü fəsil üç paraqraf – 99 136 şərti işarə) nəticə (5 232) şərti işarə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiya işinin ümumi həcmi 288 514 şərti işarədir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı, və işlənmə dərəcəsindən bəhs edilmiş, tədqiqatın məqsəd və vəzifələri, metodları müəyyən edilmiş, müdafiəyə çıxarılan əsas müddəalar göstərilmiş, dissertasiya işinin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti əsaslandırılmışdır.

**"S.Azəri və V.Babanlı nəsrində sosial mühitin xarakteri"**adlı birinci fəsil iki paraqrafdan ibarətdir.

**"S.Azəri və V.Babanlı altmışıncılar nəsrinin görkəmli nümayəndəsi kimi"** adlı birinci paraqrafda hər iki yazıçının altmışıncılar nəsrinin nümayəndələri olması faktı dəyərləndirilir. Göstərilir ki, altmışıncılar ədəbi nəsrinin özünü təsdiq etməsindən keçən zaman bu nəslin və nəsrin mahiyyətini bütün keyfiyyətləri ilə üzə çıxarmışdır. Dövrün ədəbi tənqidində bir qədər ehtiyatla yanaşılan bu nəslin yaradıcılığı sonrakı onilliklərdə, eləcə də müstəqillik dövrü ədəbi tənqidində daha geniş miqyasda təhlil edilmiş, müxtəlif problemlər baxımından zəruri qiyməti verilmişdir. Tənqidçi A.Hüseynov yeni nəslin və nəsrin yeni mərhələyə daxil olmasında bu amilləri əsaslandıraraq yazır: *"İctimai həyatın özündə diqqətəlayiq dəyişikliklər baş verirdi və estetik düşüncə bu dəyişikliklərdən geri qala bilməzdi. Elə buna görə də ədəbi fikrin*

*həyata, insan xarakterinin təsvirinə münasibətdə, eləcə də janr-üslub göstəricilərində əldə etdiyi mühüm keyfiyyətlər, hər şeydən əvvəl, ictimai-mənəvi prosesin öz daxili hərəkəti ilə şərtlənmişdi"*[3]. T.Əlişanoğlu da yeni nəsr anlayışı üzərində ətraflı dayanır və "yeni nəsr-hadisəsinin və anlayışın sərhədlərini" müəyyənləşdirir: "*Belə ki, artıq ədəbi tənqidin qeydə aldığı kimi, "yeni nəsr" istilahı Azərbaycan yeni nəsrinə çox sonralar, yalnız 70-ci illərdə artıq bu mərhələnin sabitləşməyə başladığı bir dövrdə" yapışır və əslində artıq tarixi bir kateqoriya kimi təsbit olunur"*[4].

Yeni mərhələdə altmışıncılar nəsri yalnız mövzu və problematika baxımından deyil, konflikt və qəhrəmanın təsvirində, ifadə vasitələrində də əsaslı şəkildə dəyişməyə doğru getdi. Səthi təsvirdən, mövcud sxematizmdən, şablon istehsalat qəhrəmanlarından uzaqlaşdıqca bədii nəsr insana və onun mənəvi-daxili aləminə daha çox diqqət yetirməyə başladı. Sadə insanların həyatını təsvir etdikcə yazıçı ilə oxucu arasında yaranan səmimi münasibət yeni ədəbi estetik kriteriyanı şərtləndirmiş oldu. Zamanın səciyyəsindən irəli gələn bu yeni təmayüldə bədii nəsr epoxal hadisələrin təsvirindən də imtina etdi; ümumini təsvir, təkcəni fərdi təsvirlə əvəzlədi. İdeyalılıq, partiyalılıq anlayışları bədii ədəbiyyatdan (eləcə də nəsrdən!) əlini çəkməyə başladı. Bu mərhələdə nəsr həyat həqiqətini daha canlı təsvir yolunu tutdu.

Yeni Azərbaycan nəsrini təhlil edərkən, heç şübhəsiz, S.Azəri və V.Babanlı yaradıcılığını xüsusi qeyd etmək lazım gəlir. Çünki bu yazıçılar heç də eyni nəsildən olduqlarına görə yox, məhz eyni estetik meyarları, kriteriyaları bölüşdüklərinə görə bu təmayülün üzvü olurlar. Təsadüfi deyil ki, altmışıncılar nəsrini təhlil edən bütün tənqidçi və tədqiqatçılar da bu məsələdə yekdildirlər. Hərçənd hər iki yazıçı haqqında araşdırmalar altmışıncıların digər nümayəndələrinin yaradıcılığına nisbətən az təhlil edilmişdir ki, bunu da ədəbi tənqidin passivliyinə yazmaq daha doğru olardı. Əslində istər S.Azəri, istərsə də V.Babanlının əsərləri Altmışıncılar nəsrinin yaradıcılığını zənginləşdirdiyi kimi, həm də onu tamamlayır.

---

[3] Hüseynov A. Nəsr və zaman. Bakı, Yazıçı, 1980, s.48.
[4] Əlişanoğlu T. Azərbaycan "yeni nəsr"i. Bakı, Elm, 1999, s.9.

Tənqidçi Vaqif Yusifli yazdığı kimi: *"Ədəbi nəsil etibarilə Sabir Azəri «altmışıncılar» nəslinə aiddir... Sabir Azərinin nəsri də tədqiqatçıların diqqətindən yayınmayacaq, çünki bu nəsrdə də görüb-götürməli çox şeylər var"*[5].

Sabir Azərinin hekayə, povest və romanları son qırx ildir ki, Azərbaycan nəsrində özünəməxsus yer tutur. Onun spesifik yazı tərzi, üslubu yeni nəsrin əlvanlığını şərtləndirən amillərdəndir. Bu mənada, demək olar ki, Sabir Azəri həmişə özünə, öz fərdi yazı manerasına, həyata, gerçəkliyə münasibətində məxsusi yanaşma tərzinə sadiq qalmışdır. Onun qəhrəmanları əxlaqı, dünyagörüşü, düşüncə tərzi, həyata münasibəti ilə seçilirlər.

V.Babanlı yaradıcılığa şeirlə başlasa da, "Tanışlarım və dostlarım" (1961), "Ayazlı gecələr" (1961), "Həyat bizi sınayır" (1964) kitabları ilə az bir zamanda yeni bədii nəsrin formalaşmasında mühüm rol oynayır. Bununla belə, yazıçı iki kitabdan ibarət "Vicdan susanda" (1970-1978) romanı ilə altmışıncılar nəslinin kredosuna daha çox yaxınlaşır və əvvəlki əsərlərində qoyduğu mənəvi-əxlaqi problemlərin təsvirini davam etdirir. Əsərin bir neçə dəfə yüksək tirajla təkrar nəşr olunması mənəvi-əxlaqi problemlərin bədii həllinin doğru yolda olduğunu göstərirdi. Daha sonra yazdığı "Müqəddəs ocaq", "İnsaf nənə", "Ömürlük cəza", "Gizlinlər", "Qəribə eşq" və s. əsərlərində təsvir etdiyi cəmiyyətin problemlərini, ziddiyyətlərini orijinal süjet xətti və konfliktlər vasitəsilə ortaya qoyur. Yazıçı bu əsərlərində cəmiyyəti təhlil etməyə, ardıcıl surətdə dövrün nəbzini tutmağa çalışır, həyatımızla bilavasitə, birbaşa təmasa can atan müasirlərinin obrazını yaradır. Onun ədəbiyyatımızın yüksəlişində, bədii fikrin ideya-estetik üfüqlərinin genişlənməsində mühüm xidmətləri olmuşdur. Yazıçının "Vicdan susanda" romanında cəmiyyətə yönəlik verdiyi mesajlar altmışıncıların sənət kredosuna nəinki uyğun gəlirdi, hətta həyatın, milli düşüncənin əsas sualına çevrilmişdi.

V.Babanlı və S.Azərinin 60-lar nəslinin nümayəndəsi kimi, hər birinin özünəməxsus xüsusiyyətləri vardır. Əslində bu

[5] Yusifli V. Günəşə sarı gedəndə. "Azərbaycan", 2008, N3, s. 154.

xüsusiyyətlər bir yazıçı kimi onların fərdi keyfiyyətlərini ortaya qoyur, həm də üslub zənginliyini təmin edir. Bu mənada V.Babanlı və S.Azərinin yaradıcılığı təhkiyə orijinallığı ilə fərqlənir.

S.Azəri və V.Babanlını birləşdirən cəhətlərdən biri də hər iki yazıçının sovet dövründə bir ziyalı, yazıçı kimi fikirlərinə, düşündüklərinə və yazdıqlarına görə təzyiqə məruz qalmalarıdır. S.Azəri və V.Babanlının həyatında bu təzyiq bir qədər sərt olmuşdur. S.Azəri hətta çox gənc ikən düşündüklərinə görə həbs edilmişdi. V.Babanlı isə yazdıqlarına görə üzvü olduğu partiyadan xaric edilmiş, yalnız müəyyən mübarizədən sonra bəraət ala bilmişdir. Bu paraqraf müəllifin "Sabir Azəri və Vidadi Babanlı "Altmışıncılar" nəsrinin görkəmli nümayəndəsi kimi" məqaləsində öz əksini tapmışdır[6].

Birici fəslin ikinci paraqrafı **"V.Babanlı və S.Azəri əsərlərində sosial mühitin təsvir özünəməxsusluğu"** adlanır. Göstərilir ki, 60-cı illərdən başlayaraq ailə-məişət mövzusunun özünə münasibətində də müəyyən dəyişikliklər baş verirdi. Yazıçı V.Babanlı və S.Azəri yaradıcılığının ilk dövrünün səciyyəvi cəhətlərindən biri ailə-məişət mövzusunun təsviridir. Zahirən ənənəvi mövzu hesab olunan ailə-məişət problemi onların əsərlərinin əsas leytmotivini təşkil edirdi. Lakin onların mövzuya yanaşması, təhkiyəsi, obrazların hadisələrə münasibətindəki qənaətlər, meyarlar və mühakimələri, eləcə də sosial problemlərin bədii həlli tamamilə yenilikçi düşüncəni əks etdirirdi. Hər iki yazıçının hekayələrində bu problem öz əksini tapmışdır. V.Babanlının "Üç qardaş, bir qardaş arvadı və bir də zilqara pişik", "Ürək ağrısı", "Nəvə", "Xəcalət", "Ana qayıtdı", "Hardasan" və s. hekayələrində dövrün gerçəkliklərini sosial həyatın təsviri kontekstində göstərmək istəmişdir. Yazıçı bu hekayələrində yaşadığı dövrün, həyatın və məişətin müəyyən problemlərinə toxunur, kənd adamlarının güzəranını təbii lövhələrlə təsvir edirdi.

V.Babanlının "Gəlin", "Tanışlarım və dostlarım", "Ayazlı gecələr" əsərlərində gənclərə və onların həyat müşahidələrinə

[6] Nuhova Ş. Sabir Azəri və Vidadi Babanlı "Altmışıncılar" nəsrinin görkəmli nümayəndəsi kimi BDU: Dil və ədəbiyyat. Bakı, 2016, s.245-247.

üstünlük verməsi bədii həqiqət axtarışlarında başlıca yer tuturdu. “Həyat bizi sınayır” povestində isə yazıçı dövrün, mühitin ziyalılarını düşündürən və həlli vacib həyati bir süjetə müraciət etmişdir. Əsərin yazıldığı dövrdə kənddən şəhərə axın çox güclü idi, cavanlar kənddən şəhərə axışır; burada oxuyanlar oxuyur, oxumayanlar isə geri qayıtmayıb fabrik-zavodlarda işləyirdi. “Həyat bizi sınayır” povestinin qəhrəmanı Həsrət də belələrindən idi. Kənddə məktəbi bitirərək ali təhsil dalınca şəhərə gəlib, ancaq instituta girə bilməyən Həsrət Sumqayıtda metallurgiya zavodunda fəhlə işləyir. Yazıçı kənd uşağının mürəkkəb şəhər həyatına tədricən uyğunlaşması prosesini ailə-məişət hadisələrinin təsviri çərçivəsində son dərəcə təbii boyalarla catdırır.

Ailə-məişət mövzusu, S.Azərinin də yaradıcılığının ilk mərhələsi üçün xarakterikdir. Yazıçının nəsr təcrübəsinin formalaşmasında sosial problemin bədii həlli məsələsi əsas yer tutur. Yazıçının ilk hekayələri, eləcə də “Ovçunun xatirələri” adı ilə nəşr edilən hekayələrində müasirlərinin həyat və taleyindən bəhs edilir. Bu hekayələr yalnız forma və strukturuna görə ənənəvi nəsr düşüncəsindən fərqlənmirdi, həm də obrazların həyata, məişət hadisələrinə baxışında fərqli bir mövqe ortaya qoyurdu. Yazıçının “Qağayılar ağlayır”, “Qonaq”, “Payızın ilk günü”, “Mənim ilk qaban ovum”, “Dostluq”, “Qisas”, “Durnalar qayıdır”, “Bir tikə çörək” və s. hekayələrinin qəhrəmanlarının yenilikçi müşahidə və qənaətləri, həyata baxışları, həyatlarında baş verən hadisələri dəyərləndirmələri baxımından yazıçının təsvir imkanlarını genişləndirir. Hekayələrdə qoyulan hər bir sosial problem lirik-poetik düşüncə tərzi, daxili dinamizmi və dramatizmi ilə oxucunu düşündürür. Bu hekayələrdə yazıçı insan və onun xarakterlərinin gizlinləri, çoxyönlülüyü, təbiət və onun gözəllikləri, cəmiyyət və təbiət münasibətlərinin mürəkkəblikləri ilə bağlı problemləri qələmə alır.

Sabir Azərinin fərdi yazıçı mövqeyində sosial-mənəvi problemlər başlıca yer tutur. Onun bütün əsərlərində qoyduğu problemin bir tərəfini həyatdan, gerçəklikdən gələn hadisələr və obrazlar təşkil edirsə, digər tərəfini hadisələrin mənəvi tərəfi təmin edir. “Bozdağın nağılı” povestində adi bir qoruqçunun-İsa kişinin

mənəvi aləmi, təmiz insani hissləri olduqca reallıqla verilmişdir. Povestdə müharibədən sonrakı dövr təsvir edilir. “Gecə məşəl yanır” povestində isə yazıçı problemə bir qədər də qlobal şəkildə yanaşaraq kimsəsiz, ata-anasız bir qızın-Səlimənin həyat yolunu, taleyini işıqlandırmışdır.

Beləliklə, V.Babanlı və S.Azərinin ilk dövr yaradıcılığında sosial mühit və burada baş verən hadisələrin təsvirinə geniş yer verildiyini aydın görmək olar. Hər iki yazıçının əsərlərində dövrün, cəmiyyətin sosial problemlərinə toxunulur. Bu əsərlərdə çox zaman cəmiyyət hadisələri təbiət hadisələri kontekstində təsvir edilirdi. Əsərlərdəki bədii konfliktin müasir traktovkası mənəvi-sosial problemlərlə bağlılığı yazıçıdan yeni yanaşma tələb edir. Hər iki yazıçı həyat hadisələrinə yaradıcı yanaşır, sosialist realizmindən kənara çıxaraq bədii təxəyyülün gücü ilə mövcud problemləri əks etdirir[7].

Dissertasiyanın **“S.Azəri və V.Babanlı nəsrində sosial mühit və qəhrəman problemi”** adlı ikinci fəsil iki paraqrafa bölünür. **“Sosial mühit və ictimai proseslərə fərdi baxış konsepsiyası”** adlı ilk paraqrafda hər iki yazıçının əsərləri mövcud problem baxımından təhlilə cəlb edilir. İctimai-siyasi proseslərin əks etdirilməsi S.Azərinin “Duman çəkilir” povestində özünəməxsus şəkildə təsvir edilir.

S.Azəri əsərdə yeni cəmiyyət və onun mahiyyətini təsvir etməyə çalışmışdır. Aydındır ki, bu cür mövzular 30-50-ci illər nəsrində geniş yer tuturdu. Lakin bu əsərlərin təsvirində birtərəflilik, tendensiyalılıq bu və ya digər şəkildə özünü göstərirdi. Bu cür əsərlərdə ideoloji meyillər də başlıca yer tuturdu. 70-ci illərdə isə artıq bu mövzunu yazıçı başqa bir rakursdan işləmişdir. Yəni burada tendensiyaçılıqdan daha çox, keçmişin səhvlərini düzəltmək, dövrün mahiyyətini, xarakterini olduğu kimi təsvir etmək əsas şərtlərdən biri idi. Yazıçı Cəlil bəyi qürurlu, mərd bir insan kimi təsvir edir. Onun bugünkü həyat və quruluş haqqında öz fikirləri vardır. Bu fikirlər mövcud cəmiyyət və sosial həyatla üst-

---

[7] Nuhova Sh. Problems of the Socıal Envıronment ın the Creatıvıty of V. Babanlı and S. Azarı // Неперервна освіта для сталого розвитку: філософсько-теоретичні контексти та педагогічна практика. Матеріали II Всеукраїнської науково-практичної конференції, – Дніпро: – 12 грудня, – 2019, – s.202-205.

üstə düşməsə də bu vəziyyətə dözməli olur. Bu cəhətdən Cəlil bəy sələfi Cahandar ağaya (İ.Şıxlı "Dəli Kür") daha çox oxşayır. Onun müasiri isə heç şübhəsiz, S.Vurğunun "Komsomol poeması"nın qəhrəmanı Gəray bəydir. Bu obrazlar biri-birinin davamı olduğu kimi, həm də bir-birini tamamlayır. Povestin başlıca uğurunu yalnız 20-ci illərin həqiqətini olduğu kimi təsvir etməkdə deyil, həm də dolğun xarakter yaratmaqda axtaran tənqidçi Vaqif Yusifli Cəlil bəy obrazını Cahandar ağa (İ.Şıxlı "Dəli Kür"), Kərbalayı İsmayıl (F.Kərimzadə "Qarlı aşırım") obrazları ilə müqayisə edərək yazır: "*Sabir Azərinin başlıca uğurunu dolğun xarakter yaratmaqda axtarmaq lazımdır. Cahandar ağanı ("Dəli Kür"), Kərbalayı İsmayılı ("Qarlı aşırım") hansı məziyyətlərinə görə qiymətləndirməliyik. Sabir Azəri İNSAN OBRAZI yaratmışdır, bütün mürəkkəbliyi, daxili aləminin bütün ziddiyyətləri və əlbəttə, kökü torpağa bağlılığı ilə...*"[8].

Cəmiyyət problemlərini əks etdirən əsərlərdən biri də S.Azərinin "Darıxan şəhər" povestidir. Yazıçının bu povesti əvvəlcə 1982-ci ildə "Ulduz" jurnalında dərc edildi[9]. Povestdə mövcud cəmiyyət problemlərinə toxunulurdu. Yazıçı cəmiyyətin inkişaf axarından geridə qalan eybəcər və əyalətçi bir sənət mühitini təsvir edərkən ədəbi tənqid də əsəri *"S.Azərinin yaradıcılığında müasir mövzunun, ən yeni həyat proseslərinə marağın daha da dərinləşdiyini, fikrini münasib bədii üsullarla əks etdirmək səyini" təqdir edirdi*[10].

Povestdə təsvir edilən əyalət ziyalılarının həyat prinsipləri, yaşayış tərzi və dünyaya baxışını əks etdirən əsərdə mövcud qüsurlar cəmiyyət kontekstində verilir. Buradakı ziyalıları maraqlandıran, məşğul edən məsələlərdən biri "çayxana cəmiyyəti"nin bəsitliyindən doğan primitiv əlaqə və münasibətlərdir. Povestdə mühitin, eybəcərliyin ifşası üçün sarkazmın gücündən də istifadə edilir. Əsərdə hadisə və məkan şərtiliyinin mövcudluğunu önə sürən tənqidçilər C.Məmmədli və

---

[8] Yusifli V. Günəşı sarı gedəndə. "Azərbaycan", 2008, N3, s. 155.

[9] Azəri Sabir. Darıxan şəhər (Povest). "Ulduz", 1982, № 8, s.5-37.

[10] Məmmədov C., Bayramov M. Mənəviyyatsızlığın faciəsi. "Ədəbiyyat və incəsənət", 1983, 11 noyabr.

M.Bayramov “Mənəviyyatsızlığın faciəsi” məqaləsində yazırlar: *“Darıxan şəhər” mühiti cəmiyyətin inkişaf ritminə, ahənginə uyğun gəlmədiyi üçün həmin mühitdə təsvir olunan “yaradıcı həyat” da ümumilikdə cəmiyyət üçün səciyyəvi olmayan bir qrupun eybəcər zövqünü təmsil edir. Buna görə də buradakı mənfiliklərin cəmiyyətdən təcrid edilib bədii şəkildə araşdırılması və ona qarşı yazıçının etiraz səsini yüksəltməsi təbii hal kimi qarşılanmalıdır”*[11].

S.Azərinin “Günəşə sarı gedəndə” povestində isə yazıçı cəmiyyətdəki başqa bir problemi bədii təsvir obyektinə çevirir. Povestin qəhrəmanı Mustafanı yazıçı əsərin əvvəlindən çətin durumda təsvir edir. O, yuxarılardan birinin uşağının ad gününə ceyran əti tədarükü görməlidir. Bu məqsədlə raykom katibi onu şirin vədlərlə dövlət tərəfindən qorunan qoruğa ova göndərir. Baş verən hadisələr də məhz Mustafanın ov prosesində retrospeksiya yolu ilə keçmiş-indi kontekstində təsvir olunur. Bataqlıqda azaraq üç gün qalan Mustafanın başına gələn və gələcək hadisələrdən danışılır. Hadisələr getdikcə daha da dramatikləşir və məcrasını dəyişir. Üç gün burada ölümlə üz-üzə qalan qəhrəmanın həyata, hadisələrə münasibəti də məhz bu zaman müəyyən olunur. Povest sakit bir üslubda başlayır, sanki Mustafanın təbiətin qoynunda olması, ov etməsi sıradan bir hadisə kimi təsvir edilir. Yazıçının bu yöndə olan təcrübəsi təbiəti təsvir özünəməxsusluğu ilə seçilir. S.Azərinin “Ovçunun xatirələri” silsiləsindən yazdığı ondan çox hekayələrindəki (“Payızın ilk günü”, “Qonaq”, “Mənim ilk qaban ovum”, “Kim kimi aldatdı”, “Durnalar qayıdır”, “Qaragöz”, “Çöllərin yaşıl ətri”, “Qartal əfsanəsi”, “Təbriz bənövşəsi” və s.) təbiətin təsviri fonunda ictimai problemlərin inikası xüsusi yer tuturdu. S.Azəri və V. Babanlının dövrünün hadisələrinə fərdi baxış konsepsiyası olmuş, hər iki yazıçı hadisələri daxili dramatizmi, həyatiliyi və psixoloji dərinliyi ilə qələmə almışdır. S.Azərinin “Boz dağın nağılı”, “İlk təkan”, “Ölə bilməyən adam”, V.Babanlının “Gəlin”, “Ana intiqamı” əsərlərində problemlərin mənəvi-əxlaqi aspektdə təsviri sosial mühitdə yeni situasiya yaratmış olur. Bu

---

[11] Məmmədov C., Bayramov M. Mənəviyyatsızlığın faciəsi. “Ədəbiyyat və incəsənət”, 1983, 11 noyabr.

problem “Vidadi Babanlı və Sabir Azərinin nəsrində gerçəkliyin təsviri” məqaləsində təhlilə cəlb edilmişdir[12].

İkinci fəslin “**Azərbaycan sosial gerçəkliyi və qəhrəman problemi”** adlı ikinci paraqrafında hər iki yazıçının yaradıcılığında sosial gerçəklik və qəhrəman problemi araşdırılır. Qeyd olunur ki, V.Babanlı və S.Azəri nəsrində də mənəvi-əxlaqi, şəxsiyyətin azadlığı və s. məsələlər başlıca yer tuturdu. Lakin bunu mövcud mövzu və problematika daxilində həll etmək olardı. Bu mənada onların əvvəlki əsərlərində bu problem bir qədər epizodik şəkildə verilsə də, 70-80-ci illər mərhələsində yeni kontekstdə öz ifadəsini və həllini tapır. Onların bədii nəsrdə bu istiqamətdə axtarışları yeni bir situasiyanı üzə çıxardı; məlum oldu ki, yazıçı istehsalatdan, lap elə fəhlə həyatından yazsa belə, əgər əsərin konfliktinə cəmiyyəti məşğul edən mənəvi-əxlaqi problemlər qoya, oxucunu maraqlandıra bilirsə, deməli, əsər daha uzunömürlüdür.

Bu illərdə yaranan digər romanlar kimi V.Babanlının “Vicdan susanda” romanı da uzunömürlü oldu və müəyyən mənada xalqın mənəvi sərvətinə çevrildi. Qeyd etməliyik ki, 60-cılar nəsri ilə bağlı bütün tədqiqatlarda V.Babanlının “Vicdan susanda” romanı həmişə bu nəslin aktivinə yazılır. Tənqidçilərdən B.Nəbiyev, A.Hacıyev, H.Orucəli, T.Qəhrəmanov, V.Nəsiboğlu, Y.Seyidov və başqalarının onlarla məqalələrində, icmallarda “Vicdan susanda” romanı haqqında müxtəlif məqalələr yazılmış, fikirlər söylənilmiş, cəmiyyətdəki sosial problemləri qaldırması təqdir edilmişdi. Təqribən on il ərzində yazılan romanın süjet xəttini V.Babanlı zaman etibarilə dövrün bir qədər əvvəlki mərhələsinin hadisələri üzərində qurmuş və bununla da romanın ideya-bədii strukturuna, obrazların xarakterçə təkmilləşməsinə müəllifin özünəməxsus yaradıcılıq axtarışları bədii nəsrimizə yeni mövzu, problematika, hadisələrə yanaşma və təhkiyə gətirmişdir. Əsərin süjet xətti də çoxşaxəli olmaqla yanaşı, yeni və mütəhərrikdir. Hadisələrin şaxəliliyi, obrazların orijinallığı, insan talelərinin zənginliyi romanı yeni nəsr kontekstindən dəyərləndirməyə imkan verir.

[12] Nuhova Ş. Vidadi Babanlı və Sabir Azərinin nəsrində gerçəkliyin təsviri, AMEA: Xəbərlər. Bakı, ELM, 2017, s.131-135.

Cəmiyyətdəki mənəvi-əxlaqi problemlərin təsviri üçün kimya elmi ilə məşğul olan geoloqların həyatından götürülməsi də təsadüfi deyil. Yazıçı həyatda, cəmiyyətdə və təbiətdə baş verən prosesləri paralel olaraq verir. Alimlər duru yanacağın istehsalında, xüsusən benzinin hazırlanmasında elə nəticələr əldə etməyə çalışırlar ki, yanacağın işlənməsindən törənən qazlar havanı zəhərləməsin. Eyni zamanda, cəmiyyətdə insan münasibətlərində unudulmaqda olan vicdanın ictimai məsuliyyət hissinin yenidən özünə qaytarılması həm də cəmiyyətdəki zəhərlənmənin qarşısını alır. Yazıçının qaldırdığı bu problem bugünün özündə belə, tamamilə nəinki aktuallığını qoruyub saxlayır, düşünürük ki, hətta bir qədər də daha kəskin xarakter almış, yeni bir mərhələyə keçmişdir.

Romanın süjet xəttinə qoyulan ideya cəmiyyəti düşündürən sosial problemlərdəndir; professor Söhrab Günəşli, gənc aspirant Vüqar Şəmsizadə kimya elminin ən mühüm problemlərindən biri olan yüksək oktanlı mühərrik yanacağı almaq üçün elmi səylər göstərirlər. Əslində, zamanında bu problem qloballığı ilə diqqəti çəkirdi. Lakin belə bir qlobal problemi milli nəsrin süjet xəttinə gətirmək yazıçıdan böyük cəsarət tələb edirdi.

"Vicdan susanda" romanının qəhrəmanları təmiz təbiət, saf su, pak qəlb uğrunda mübarizə aparan insanlardır. Onların mübarizəsi iki istiqamətdə gedir; birincisi, həyatda iqtisadi, ekoloji sahədə, ikincisi, mənəvi-əxlaqi sahədə. Problemin bu cür qoyuluşu nə qədər çətin olsa da, yazıçı bu komponentləri birləşdirə bilib və sintez halında təsvir edib. Romanda müharibədən sonrakı dövr təsvir olunsa da, yazıçı retrospeksiya yolu ilə əvvəlki illərə də gedir.

Romanda xeyir və şər problemi ziyalıların öz içərisindəki qüvvələrin toqquşması prosesində həll olunur; Günəşli ilə Bədirbəylinin bir-birinə və ətrafdakılara real münasibətləri qaynağında aşkarlaşır. Təəssüf ki, müəllifin əvvəldən axıra qədər aşkar təzahür etdirdiyi pozitiv tendensiya və estetik münasibət sonda birbaşa və müstəqim tərzdə, inzibati yolla – yeni yoxlama komissiyasının təşkili və zavodda sınaqların başlanması ilə təsdiqə yetir.

V.Babanlının "Vicdan susanda" romanı altmışıncılar nəsrini zənginləşdirən əsərlərdən biri kimi bir çox cəhətdən (mövzu, problematika, orijinal obrazlar, təsvir yeniliyi və s.) diqqəti cəlb

edir. Hər şeydən əvvəl, bu əsər və onun müəllifi 60-cı illər nəsrinin mövzu coğarfiyasını genişləndirdi, obrazlar qalereyasını zənginləşdirdi.

V.Babanlının "Qəribə eşq" romanı da "Vicdan susanda"nın davamı kimi səslənir, bu roman təxminən yazıçının ilk sevgi romanından qırx il sonra yazılmışdır. Maraqlıdır, gənc yaşlarında yazdığı romanla, ahıl yaşda yazdığı sevgi romanında hansı kəsişmələr və fərlqiliklər vardır. Yazıçı bu romanla nə demək istəyir? Romanda yazıçı müasirlərinin həyatını qələmə almışdır. Müasir həyatdan yazmaq yazıçı üçün həmişə çətinlik törətmişdir, ona görə ki, həyatı bütün ziddiyyətləri, mürəkkəblikləri ilə göstərmək və onu müasirlərinə təqdim etməyin öz çətinliyi vardır. Nədən ki, müasirlikdən yazılan hər əsər müasirləri o qədər də razı salmır. Lakin yazıçının "Vicdan susanda" əsəri ilə müasirlərinin zövqünü oxşaması hadisəsi baş vermişdir. Elə yazıçının bu romandan sonrakı yaradıcılığında da müasirlərinin həyatı təsvir edilirdi. Lakin ilk romanında olduğu kimi, burada da eşq, sevgi motivinin əsərin əsas süjet xəttini təşkil etməsi yazıçı üçün müəyyən mənada risk demək idi. Çünki ömrün gənclik çağında əsərin süjetində sevgi, məhəbbət xəttinin aparıcı olması başadüşüləndir. Ömrün ahıl çağında yazılan "Qəribə eşq" romanında üstəlik eşqə düşənin gənc deyil, ahıl olması məsələni bir qədər də mürəkkəbləşdirmiş olur. Beləliklə, V.Babanlı yaradıcılığında sosial gerçəkliyi bütün reallığı ilə ifadə edən "Vicdan susanda" romanının mühüm yer tutduğunu görürük. Problem "Vidadi Babanlının "Vicdan susanda" romanında mənəvi-əxlaqi problemin təsviri" və "Vidadi Babanlının "Vicdan susanda" romanında sosial mühitin təsviri" məqalələrində öz əksini tapır[13].

Dissertasiyanın üçüncü fəsli **"S.Azəri və V.Babanlı nəsrində sosial problematikanın bədii həlli"** adlanır. Bu fəslin **"Kənd həyatı və onun problemlərinin təsviri"** paraqrafında kəndin sosial

---

[13] Nuhova Ş. Vidadi Babanlının "Vicdan susanda" romanında mənəvi-əxlaqi problemin təsviri ADNSU: Doktorantların və gənc tədqiqatçıların XX respublika elmi konfransı materialları. II cild. Bakı, 2016, s.98-100; Nuhova Ş. Vidadi Babanlının "Vicdan susanda" romanında sosial mühitin təsviri BSU: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı, 2016, s.165-169.

mühitinin təsviri problemləri araşdırılır. Burada 50-ci illərin ortalarından başlayaraq Azərbaycan nəsrində kənd həyatı, kənd mövzusunun S.Azəri və V.Babanlı yaradıcılığında özünəməxsus şəkildə təsvir olunduğu xarakterizə olunur. Qeyd edilir ki, o zaman bu proses yalnız Azərbaycan nəsrində deyil, ümumittifaq nəsrində də gedirdi. Rus yazıçıları V.Şukşin, V.Rasputin, F.Abramov, V.Belovun yaradıcılığında kənd mövzusu xüsusi bir qol təşkil edirdi. Elə S.Azəri və V.Babanlının da bir çox əsərlərində hadisələr həm kənddə, həm də şəhərdə cərəyan edir. Bununla belə, əgər belə bir bölgü aparılarsa S.Azəri və V.Babanlı yaradıcılığında kənd həyatının ağırlıq təşkil etdiyini aydın görmək olar. Onların bir çox hekayə və povestlərində kənd mühiti və onun problemləri, yaxud kənddən şəhərə gələn insanların taleyi təsvir edilir. S.Azərinin "Ovçunun xatirələri" silsiləsindən olan "Payızın ilk günü", "Mənim ilk qaban ovum" "Qağayılar ağlayır" və s. hekayələrində kənd həyatı və onun problemləri lirik-dramatizmlə çatdırılır və kənd həyatı və onun insanlarının xarakterini və gizlinlərini ifadə etməyə yönəlmişdir. V.Babanlının isə "İnsaf nənə", "Müqəddəs ocaq" povestləri və "Üç qardaş, bir qardaş arvadı və bir də zil qara pişik", "Ürək ağrısı", "Xəcalət", "Ana qayıtdı", "Hardasan", "Dayıoğlu", "Əmir dayının azarı" və s. hekayələrində Azərbaycan kəndi və onun qayğıları bütün detalları ilə göstərilir.

S.Azərinin "Ölə bilməyən adam", "İlk təkan" povestlərində hadisələr müasir kənd həyatından bəhs edir. Buna baxmayaraq, yazıçı retrospeksiya yolu ilə keçmişə qayıdışlar edərək müharibə illərinin hadisələrini də təsvir edir. Müharibə dövrü bu illərdə yazılan əksər əsərlərdə bu və ya digər şəkildə özünü göstərirdi. S.Azəri də istər-istəməz paralel olaraq bugünkü hadisələri müharibə illərinə aparıb çıxarır. Bu yazıçıya imkan verir ki, kəndin dünəni ilə bugünü arasında müəyyən müqayisələr aparsın, burada baş verən hadisələrin inkişafını göstərsin. "Ölə bilməyən adam" povestində qəbristanlıqda bir türbənin küncündə öz həyatını yaşayan Kor Fəti təsvir edilir.

"İlk təkan" povestində hadisələr Qaraqoyunlu kəndi ətrafında baş verir. Qaraqoyunlu kəndinin kənarında bir-birinə yaxın üç evin (traktorçu Soltan, briqadir Qasım və Həsən müəllim) təsviri ilə

başlayan povestdə hadisələr kənd həyatının ziddiyyətlərini, çətinliklərini, münasibətlərin mürəkkəbliklərini göstərirdi. "İlk təkan" povestində nəsrimiz üçün yeni süjet xətləri olduğu kimi, yeni obrazlar qalereyası ilə də fərqlənir. Burada təsvir olunan laqeydlik mücəssiməsi Qasım, Soltan, Həsən müəllimlə yanaşı, "namuslu", "qeyrətli", "zəhmətkeş", "ev-eşik adamı" Osman da vardır.

V.Babanlının ilk hekayələri, "Gəlin", "Aylı gecələr" povestləri və "Müqəddəs ocaq" romanındakı təsvir təbiiliyini, kənd həyatını özünəməxsus şəkildə göstərməsi nəsrdə yeni təhkiyə və stereotiplər formalaşdırır. Hələ 50-ci illərdə dərc edilən "Gəlin" povestində diqqəti kənddə baş verən proseslərə yönəltmişdi. "Aylı gecələr"də isə xam torpaqlarda çalışan Azərbaycan oğullarının həyatını və məişətini təbii rənglərlə təsvir edirdi. Bu əsərlərdə yazıçının özünəməxsus təbii dili, koloriti oxucunu təxəyyülün qarışıq, dolanbac yollarından çıxarıb, mümkün olduğu qədər real dünyaya qaytarır, kəndin təbiəti, gur həyat küləyi insanın üz-gözünü oxşayır, sanki həqiqi, canlı insanlarla ünsiyyət qurursan. "Müqəddəs ocaq" romanının kənd həyatının sosial problemlərinə həsr edilməsi ədəbi tənqidin də diqqətini çəkmişdir. Yazıçı müqəddəs ocaq dedikdə hər kəsin doğulduğu, boya-başa çatdığı və ömrü boyu onu tərk etməyən, həmişə ora qayıtmağa çalışan bir məkanı, geniş mənada ana torpağı nəzərdə tuturdu. İ.Əbilovun aşağıdakı fikirləri əsərin ideyasını tamamilə doğru əks etdirir: *"Müqəddəs ocaq"da cərəyan edən hadisələr və faktlar hesabına ümumiləşdirilmiş ictimai-estetik ideal dinamik prosesdə öz təsdiqini tapdığındandır ki, bədii həqiqət bir küll halında özünü biruzə verir, nəticədə oxucu marağı adi diqqət çərçivəsini qıraraq vətəndaş narahatlığının yüksək mövqeyində mərkəzləşir"*[14].

Beləliklə, həm S.Azəri, həm də V.Babanlı yaradıcılığında sosial problematikanın müxtəlif və rəngarəng bədii həll variantlarına rast gəlirik. Hər iki yazıçı təsvir etdiyi hadisələri məhz bu kontekstdə göstərmək və yeni, orijinal yolla getmək istəmişdir. Bu kəndlə bağlı yazılan əsərləri daha maraqlı etməklə yanaşı, yazıçının kənddə baş verən hadisələrə ictimai məna verməsini də

[14] Əbilov İ. Ocağın cazibəsi. "Ədəbiyyat və incəsənət", 1983, 16 sentyabr.

şərtləndirmiş olurdu[15].

Üçüncü fəslin ikinci paraqrafı **"Şəhər mühiti sosial-siyasi həyatın ziddiyyətləri kontekstində"** adlanır. Burada göstərilir ki, S.Azəri və V.Babanlının povest və romanlarında dövrün, mühitin mənəvi-əxlaqi problemləri sosial ziddiyyətlər kontekstində verilirdi. S.Azərinin "Dalanda", "Darıxan şəhər", V.Babanlnın "Ana intiqamı", "Ömürlük cəza", "Vicdan susanda" və s. povest və romanlarında şəhər mühitinin sosial ictimai ziddiyyətləri mənəvi-əxlaqi problemlər baxımından uğurlu bədii həllini tapır.

S.Azərinin "Dalanda" romanında da məhz bu cür hadisələr və mənəvi-əxlaqi problemlər təsvir edilir. Bütün əsərlərində maksimum dərəcədə həyat həqiqətinə sadiq qalan yazıçı burada da bədii-estetik kredonu davam etdirmişdir. Onu da demək lazımdır ki, yazıçının bu əsərinin adı da həm müstəqim, həm də simvolik məna daşıyır. Maraqlıdır ki, romanın malik olduğu geniş sosial tutum da məhz bu meydanda bədii şərhini tapan hadisələrin əhatəliyi və dəqiqliyi ilə üzə çıxır. Bu dalanda sözün həqiqi mənasında bütün cəmiyyət təsvir edilir. Buradakı qəhrəmanların yaşadığı dalanın ümumi mənzərəsi, qəhrəmanların fəaliyyəti qətiyyən cəmiyyətdən təcrid olunmamışdır: bu dalanda hər kəs var; adi adamlardan tutmuş, akademik, inşaatçı, dərzi, qatıqsatan, gənclər, yeniyetmələr və b. bütövlükdə cəmiyyətin bütün təbəqələri ilə rastlaşırıq.

Əsərin bədii estetik qayəsi bundan ibarətdir ki, insan yolu səhv gedərsə, günlərin birində həmin yoldan dönmək, həmin mühitdən çıxıb getmək üçün özündə güc tapmalıdır. "Dalanda" romanının başlıca qayəsi məhz bundan ibarətdir, bütün hadisələr də çox doğru olaraq bu ideya ilə bağlanır. Romanda hadisələr İçərişəhərdəki köhnə dalanların birində baş verir. Burada baş verən hadisələr, əslində, hər gün hər yerdə həyatımızda, mənəviyyatımızda rastlaşdığımız hadisələrin əks-sədası kimi səslənir. Ancaq bu məkan şərtidir, müəllif öz qəhrəmanlarını, onların duyğu və düşüncələrini köhnə dalanda baş verən hadisələrlə məhdudlaşdırmır, getdikcə daha geniş məkana daxil olur. Müəllif

[15] Нухова Ш. Сельская жизнь и отражение ее проблем в прозе С.Азери и В.Бабанлы Мова и культура. Киев, 2017, s.64-71.

təhkiyəsi ilə zaman-zaman bu məkandan kənara çıxır. Yəni məkanın kiçik olması heç də əsərdəki ideyanı kiçiltmir, əksinə kiçik bir məkanda baş verən hadisələr qlobal dünya ilə bağlanır və getdikcə miqyası genişlənməyə doğru gedir. S.Azəri epizminin gücü ilə "Dalanda" romanında dövr, zaman üçün (bəlkə də bütün dövr və zamanlar!) xarakterik olan mənəvi-əxlaqi, psixoloji problemlər bədii cəhətdən uğurlu həllini tapdığına diqqət çəkən B.Əhmədov yazır: *"Nəzərə alsaq ki, müəllifin təsvir etdiyi məkan kimi "dalan" məcazi, metaforik mənadadır, o zaman yazıçının cəmiyyət və insan, cəmiyyət və azadlıq problemlərinə yeni bədii münasibətin izlərini görməmək mümkün deyil. Qafarın "dalan"ı tərk edərək doğulduğu məkana getməsi onun azadlığa qovuşması anlamına gəlir"*[16].

S.Azəri romandakı bütün obrazlar kimi Fəridəni də çox təbii, ziddiyyətli və mürəkkəb təsvir edir. Bəlkə də Fəridə bu obrazlar içərisində ən mürəkkəbidir. Onun arzusu da, başa düşüləndir: istəyir ki, çoxlu pulu olsun, firavan yaşasınlar, uşaqları da, özləri də mürşüdovların, mağaza müdirlərinin, prokurorların… uşaqları kimi gözəl geyinsinlər, kurortlarda gəzsinlər və s.

S.Azərinin "Dalanda" romanında altmışıncıların yaradıcılığında sıx-sıx müraciət edilən şəhər həyatı və mühiti və burada baş verən mənəvi-əxlaqi problemlər təsvir edilir. Yazıçı mənəvi azadlıq, əxlaqi məsələlərə bir neçə kontekstdən yanaşır. Həm Qafar obrazı, həm də onun daşıdığı mənəvi-əxlaqi yük daxilən təmiz olanların cəmiyyətdə müəyyən mövqe tuta bilmədiyini göstərmək istəmişdir. Romanda qaldırılan əxlaqi problemlər ayrı-ayrı hadisə və obrazlara münasibətdə əks olunmuşdur[17].

Üçüncü fəslin **"Sənədli-bədii nəsrdə sovet gerçəkliyinin təsviri problemləri"** adlı üçüncü paraqrafında S.Azəri və V.Babanlı nəsrində sovet gerçəkliklərinin təsviri məsələləri başlıca yer tutur. Hər iki yazıçının sovet gerçəkliyinin təsviri problemlərinə müraciəti, hər şeydən əvvəl, sovet quruluşu zamanında yaradıcı ziyalıların deyə bilmədikləri həqiqətləri yazmaq ehtiyacından yaranmışdı. Elə məsələlər var idi ki, sovet dövründə onları yazmaq

---

[16] Əhmədov B. Sözə bağlı ömür. "525-ci qəzet", 2013, 20 mart.
[17] Nuhova Ş. Sabir Azərinin povestlərində ictimai proseslərin inikası. ADU-nun Elmi xəbərləri. Cild 2, №2, 2017, s.254-260.

çox çətin idi. Əgər bədii əsərlərdə sətiraltı mənalarla ifadə etmək mümkün idisə, sənədli, publisistik şəkildə bu fikirlərin ifadə edilməsinə senzura imkan vermirdi. Ona görə də sovet cəmiyyətinin bir çox həqiqətləri (repressiya, milli münasibətlər, tarixi həqiqətlər və s.) quruluş süqut etdikdən sonra yazılır və işıq üzü görürdü. S.Azəri "Tələbə məhbusun etirafları" V.Babanlı isə "Gizlinlər" romanlarında sovet dövründə düçar olduqları çətinlikləri və məhrumiyyətləri qələmə almışlar. V.Babanlının romanında eşitdiyi və müşahidə etdiyi hadisələrə də geniş yer verilmişdir. Hər iki romanda hadisələr sovet dövrünün kifayət qədər ziddiyyətli və mürəkkəb dövrünü əhatə etməklə, dövrün, mühitin, quruluşun xarakterini göstərir. Maraqlıdır ki, hər iki əsər sovet quruluşunun süqut etdiyi dövrdən sonra yazılmışdır. Bu həm onlara imkan vermişdir ki, başlarına gələn, yaxud müşahidə etdikləri hadisələri bütün reallığı ilə əks etdirsinlər. S.Azəri "Tələbə məhbusun etirafları" əsərini "sənədli-biblioqrafik", V.Babanlı isə "Gizlinlər"i "gerçək roman" adlandırmışdır. Bütün bunlar hər iki əsər arasındakı mövzu və problematika yaxınlığından xəbər verir. S.Azəri romanı 1992-2000-ci illərdə yazmışdır; bu dövrdə sovet hakimiyyəti artıq tarixin arxivinə qovuşmuşdusa, lakin quruluşla bağlı müxtəlif, ziddiyyətli fikirlər hələ də qalırdı. Bu fikirlərin bir çoxunu həyat özü üzə çıxarmışdısa, böyük əksəriyyəti ayrı-ayrı insanların düşüncəsində, başına gələn hadisələrdə qalmışdır ki, bunları bugünkü və gələcək nəsillərə bədii və sənədli yolla çatdırmaq mümkündür.

S.Azərinin "Tələbə məhbusun etirafları" romanı ötən yüzilliyin ikinci yarısında keçmiş sovetlər İttifaqı və Azərbaycanda baş verən ictimai-siyasi prosesləri əks etdirir. Müəllif azı qırx illik bir dövrün xarakterini, hadisələrini, şəxsiyyətlərini, bütövlükdə ictimai proseslərini əks etdirməyə nail olur. Bununla yazıçı həm çağdaş oxucu qarşısında yeni bir dünya açmış olur, həm də dövrün gerçəkliklərini sənədli-bədii yolla əks etdirir. Yazıçı özünün simasında yaşadığı həyatın gerçəkliklərini təsvir edir. Sovet cəmiyyətində keşməkeşli və əzablı yollar keçən yazıçının qarışıq dövrün xaosundan qurtulması prosesi romanda reallıqla göstərilir. Müəllif nədən bəhs etsə də öz saflğına arxalanır və sonunun belə

faciəylə bitməsindən qorxmayaraq, hər şeyi dürüst təsvir edir.

S.Azəri şahidi olduğu dövrün tarixi hadisələrini, xüsusilə ədəbiyyat, mədəniyyət və incəsənət aləmini canlı koloritlə əks etdirir. Biz bu roman sayəsində vətəni üçün, dilimiz və ədəbiyyatımız üçün canını fəda edən vətənpərvərləri tanıyırıq. Öz sahəsi olan jurnalistikanın sirlərini, gözəlliklərini olduğu kimi çatdırır. Təcrübəli şəxs olaraq tərbiyəvi-əhəmiyyətli məsləhətlərini də verməyi unutmur. Bununla yanaşı, yazıçı ədəbi mühitdəki qısqanclıq və paxılllıq kimi xüsusiyyətlərə də öz münasibətini bildirir. Buradan belə məlum olur ki, ədəbi mühitin əsas qəhrəmanları yaradıcı adamlar-şair və yazıçılar olsa da, bu kimi xüsusiyyətlər buradan da xali deyil.

V.Babanlının "gerçək roman" adlandırdığı "Gizlinlər" əsəri 1940-cı illərin ortalarından başlayaraq 1970-ci illərə qədərki müşahidə etdiyi, başına gələn hadisələr, əhvalatlar, faktlar əsasında qələmə alınmışdır. Maraqlıdır ki, bu əsərlə S.Azərinin əsəri arasında həm dövr, həm də ideya-məzmun yaxınlığı açıq-aşkar hiss olunur. Sovet quruluşu zamanında yaradıcı ziyalıların doğru söz demək, həqiqəti yazmaq uğrunda düçar olduqları çətinliklər, məhrumiyyətlər, quruluşun mürəkkəblikləri, ziddiyyətləri, ədəbi-ictimai mühitin xarakteri və s. bu əsərlərin mahiyyətini təşkil edir. V.Babanlının da "Gizlinlər" əsərində mövcud ədəbi mühitin müxtəlif mərhələləri göz önündə canlandırılmaqla yanaşı, sovet cəmiyyətinin müxtəlif problemləri qabardılır. Çağdaş oxucu bu əsərdə 37-ci il repressiyasına, 40-50-ci illər ədəbi mühitinə münasibəti aydın görür.

V.Babanlının "Gizlinlər"ində sovet cəmiyyətinin müxtəlif hadisələrinin realist rakursdan yazılması dövrün hadisələrini qiymətləndirmək baxımından da əhəmiyyətlidir. Belə ki, həmin dövrdə bir çox hadisələr baş vermişdir ki, bu gün həmin hadisələrə müxtəlif baxış bucaqlarından nəzər salınır. Ədəbiyyat və siyasət, ideologiyanın ədəbiyyatı yönləndirməsi, partiyalılıq və xəlqilik məsələsi; bütün bunlar həmin dövrün əsas xüsusiyyətlərindəndir. Romanda isə bu hadisələrə kompleks münasibət bildirildiyindən dövrün ictimai münasibətləri bütün reallığı ilə açılır. Bu paraqrafda qoyulan məsələlər "Sabir Azəri və Vidadi Babanlı sənədli-bədii

nəsrində sovet gerçəkliyinin təsviri problemləri" məqaləsində təhlil edilir[18].

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqat işinin ümumi məzmunundan irəli gələn qənaətlər ümumiləşdirilmişdir. Qeyd olunur ki:

- onların əsərlərinin mövzusu, ideyası, hadisələri təsvir özünəməxsusluğu, obrazları, təhkiyə orijinallığı və daha bir neçə komponenti baxımından tamamilə altmışıncılar nəsrinə uyğun gəlir və onu tamamlayır.
- onların nəsr yaradıcılığı bunu deməyə əsas verir ki, altmışıncıların digər nümayəndələrinin yaradıcılığı kimi, V.Babanlı və S.Azəri də yeni Azərbaycan nəsrinin əsas nümayəndələri kimi eyni işi görmüş, missiyanı yerinə yetirmiş, özünəməxsus üslubu və təhkiyəsi olmuşdur.
- V.Babanlı və S.Azərinin yaradıcılığında dövrün, cəmiyyətin sosial problemləri bədii tədqiq obyektinə çevrilir. Hər iki yazıçının nəsrində mövcud sistemlə ideoloji cəhətdən səsləşməyən faktorlar da göstərir ki, həyat həqiqətinin bədii həqiqətə çevrilməsində onların böyük əməyi vardır.

**Mövzu ilə bağlı tədqiqatçının aşağıdakı elmi məqalələri çap edilmişdir.**


1. Nuhova, Ş.B. Sabir Azərinin "Tələbə məhbusun etirafları" romanında sovet gerçəkliyinin təsviri // Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər. Beynəlxalq elmi konfrans. – Bakı: BSU, – 3-5 may – 2016, – s.287-289.
2. Nuhova, Ş.B. Sabir Azəri və Vidadi Babanlı "Altmışıncılar" nəsrinin görkəmli nümayəndəsi kimi // –Bakı: BDU, Dil və ədəbiyyat, – 2016. – s.245-247.
3. Nuhova, Ş.B. Sabir Azərinin povestlərində ictimai proseslərin inikası // – Bakı: ADU-nun Elmi xəbərləri, – 2017. II cild,


[18] Sabir Azəri və Vidadi Babanlı sənədli-bədii nəsrində sovet gerçəkliyinin təsviri problemləri. AMEA: Filologiya məsələləri. Bakı, 2017, s.328-334; Sabir Azərinin "Tələbə məhbusun etirafları" romanında sovet gerçəkliyinin təsviri. BSU: "Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər" II hissə. Bakı, 2016, s.287-289.

№2, – s.254-260.

4. Nuhova, Ş.B. Vidadi Babanlının “Vicdan susanda” romanında mənəvi-əxlaqi problemin təsviri // Doktorantların və gənc tədqiqatçıların XX Respublika elmi konfransı. – Bakı: ADNSU, – 2016, 24-25 may, – s.98-100.
5. Nuhova, Ş.B. Vidadi Babanlının “Vicdan susanda” romanında sosial mühitin təsviri // – Bakı: BSU, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2016. №4 – s.165-169.
6. Nuhova, Ş.B. Sabir Azərinin “Dalanda” romanında mənəvi-əxlaqi problemlər // – Bakı: Ədəbiyyat məcmuəsi, Nizamı adına Ədəbiyyat institutunun əsərləri. – 2017. XXIX cild. – s.141-148.
7. Nuhova, Ş.B. Sabir Azəri və Vidadi Babanlı sənədli-bədii nəsrində sovet gerçəkliyinin təsviri problemləri // – Bakı: AMEA, Filologiya məsələləri. – 2017. №6, – s.328-334.
8. Nuhova, Ş.B. Vidadi Babanlı və Sabir Azərinin nəsrində gerçəkliyin təsviri // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının xəbərləri XXIX, – 2017. – s.131-135.
9. Нухова, Ş.B. Сельская жизнь и отражение ее проблем в прозе С.Азери и В.Бабанлы // – Киев: Мова и культура, – 2017. – s.64-71.
10. The problem of the social environment and the hero in the prose of Vidadi Babanly. Asian Journal of Science and Technology Vol,09, 11, pp. 9042-9045, November, 2018
11. Nuhova Sh. Problems of the Socıal Envıronment ın the Creatıvıty of V. Babanlı and S. Azarı // Неперервна освіта для сталого розвитку: філософсько-теоретичні контексти та педагогічна практика. Матеріали II Всеукраїнської науково-практичної конференції, – Дніпро: – 12 грудня, – 2019, – s.202-205.

Dissertasiyanın müdafiəsi "30" iyun 2021-ci tarixində saat 13^30 Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05– Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı, AZ 1001, İstiqlaliyyət küç., 30, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. IV mərtəbə, elektron zal.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA-nın rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "27" may 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 27.05.2021

Kağızın formatı: A5

Həcm: 43630

Tiraj: 100